

# Azərbaycanla əməkdaşlığa maraq böyükdür

## Bunu Prezident İlham Əliyevin Nyu Yorkda qarşı tərəflərin müraciətlərinə əsasən keçirdiyi görüşlər də təsdiq edir

**Xəbər verildiyi kimi, Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün sentyabrın 22-də Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərinə işgüzar səfərə gedib. BMT Baş Assambleyasının yubiley sessiyasında 150-dən çox dövlət və hökumət başçısı iştirak edir. Artıq dünəndən etibarən qurumun Nyu Yorkdakı mənzil qərargahında yüksəksəviyyəli debatlar başlayıb.**

### Dövlətimizin başçısı BMT Baş Assambleyasının 80-ci sessiyasında qalib Lider kimi iştirak edir

1992-ci il martın 2-dən BMT üzvü olan respublikamız bu qurumun tribunasından ilk gündən qlobal diqqəti torpaqlarımızın Ermənistan tərəfindən işğal edilməsinə yönəldib. Respublikamızla BMT arasında əlaqələrin inkişafı, xüsusən təşkilatın tribunasından daha səmərəli yararlanmaq Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonrakı dövrə təsadüf edir. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan BMT platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan münaqişəsinə daha çox cəlb etməyə başladı. Ulu Öndərin 1994-cü ilin sentyabr ayında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirakı ilə Azərbaycanla BMT arasında məzmunlu tərəfdaşlığın əsası qoyuldu.

1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən BMT Baş Assambleyasının xüsusi təntənəli iclasında iştirak edən Ulu Öndər bu qurumun yüksək kürsüsündən mövcud qlobal problemlərə dair Azərbaycanın prinsipial mövqeyini açıqlamış, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırmışdı. Heydər Əliyev 2000-ci ilin sentyabr ayında BMT-nin Minillik Zirvə Toplantısında da iştirak etmiş, çıxışında qlobalizasiya mövzusuna toxunmuş, həmçinin Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə Azərbaycanın verdiyi töhfələri xüsusilə qeyd etmişdi.

Prezident İlham Əliyev xarici siyasətdə BMT ilə əlaqələrin inkişafına mühüm önəm verir. Dövlətimizin başçısı bu qurumun sessiyalarında iştirakı zamanı hər zaman diqqəti artıq həllini tapmış Qarabağ probleminə yönəltmiş, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan etmiş və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını ümdə məsələ kimi irəli sürmüşdü.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2017-ci il sentyabrın 20-də BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında etdiyi çıxış Azərbaycanın Ermənistana siyasi-diplomatik zərbəsi kimi tarixə düşmüşdü. Bununla həm də Ermənistanın beynəlxalq səviyyədə ifşası istiqamətində növbəti uğurlu addım atılmışdı. Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında etdiyi çıxış bir daha Ermənistanın işğalçılıq siyasəti barədə əsl həqiqətlərin dünyaya çatdırılması baxımından mühüm hadisə olmuşdu.

Artıq Qarabağ problemi başa çatıb, Azərbaycan dövləti həm də BMT Nizamnaməsinə söykənərək torpaqlarını işğaldan azad edib, özünün ərazi bütövlüyünə nail olub. Bununla da dövlətimiz BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin yerinə yetirilməsini təmin edib. Azərbaycanın regionda yaratdığı yeni reallıqlar beynəlxalq ictimaiyyət tərəfindən tanınır.

Prezident İlham Əliyev isə BMT Baş Assambleyasının 80-ci sessiyasında nüfuzlu dövlət başçısı olmaqla yanaşı, həm də qalib Lider, Müzəffər Ali Baş Komandan kimi iştirak edir.

### Respublikamızdakı sabitlik və şəffaf biznes mühiti yeni tərəfdaşlıqlar üçün əlverişli zəmin yaradır

Prezident İlham Əliyev hər zaman BMT Baş Assambleyasının sessiyalarında və bu qurumun digər tədbirlərində xüsusi ehtiramla qarşılanıb. Dövlətimizin başçısının bu çərçivədə etdiyi çıxışlar, keçirdiyi görüşlər həmişə diqqətlə izlənilib, maraqla qarşılanıb.

Hazırda dünyanın diqqəti BMT Baş Assambleyasının 80-ci sessiyasına yönəlib. Azərbaycan Prezidenti İlham Əliyev bu mötəbər qlobal siyasi tədbirin ən nüfuzlu qonaqları sırasındadır.

Azərbaycan lideri səfərinin ilk günü Nyu Yorkda bir neçə tanınmış şirkət rəhbəri ilə görüşlər keçirib. Bunlar dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan "Brookfield Asset Management"in baş icraçı direktoru Brüs Flætt, beynəlxalq institutlar, məsləhətçilər və fərdi investorlar üçün yarım trilyondan çox ABŞ dolları məbləğində aktivləri idarə edən "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktoru Corc Volker və alternativ investisiyaların idarə edilməsi üzrə dünyanın ən böyük şirkətlərindən biri olan "Blackstone" şirkətinin prezidenti və baş əməliyyat direktoru Conatan Qreydir. Sözügedən hər 3 şirkət dünyanın ən böyük maliyyə qurumları sırasında yer alır. Prezident İlham Əliyevlə görüşlər isə məhz onların müraciəti əsasında baş tutub. Bu isə Azərbaycandakı həmin şirkətlərin ölkəmizə olan böyük marağının göstəricisidir.

Azərbaycan hər zaman ölkəmizdə investisiya yatırmaq istəyən şirkətlərlə, o cümlədən maliyyə institutları ilə əməkdaşlığa böyük önəm verib. Respublikamızdakı siyasi-ictimai sabitlik, şəffaf və əlverişli biznes mühiti, davamlı iqtisadi islahatlar yeni tərəfdaşlıqlar üçün əlverişli zəmin yaradır. Bunu xarici şirkətlər də görür, dəyərləndirir və onların rəhbərlərinin Prezident İlham Əliyevə görüş üçün müraciət etmələri də bundan irəli gəlir.

Torpaqlarını işğaldan azad edən Azərbaycanın yürütdüyü uğurlu siyasət və Prezident İlham Əliyevin nüfuzu bölgədə sülhü təmin etməklə bərabər, əməkdaşlığa böyük töhfələr verir. Əlbəttə ki, bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqelərinin daha da güclənməsinə, xarici şirkətlərin respublikamızla əməkdaşlığa daha böyük maraq göstərmələrinə əhəmiyyətli dərəcədə təsir edir. Prezident İlham Əliyevin Nyu Yorkda qarşı tərəflərin müraciətlərinə əsasən keçirdiyi görüşlər də bunu təsdiqləyir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 24 sentyabr (№204).- S.8.